

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 143 (21.553)

4 avqust 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Vaxtanq Qomelaurini qəbul edib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Vaxtanq Qomelauri Gürcüstanın Baş naziri Georgi Kvirikaşvilinin salamlarını dövlətimizin başçısına çatdırıb.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən təhlükəsizlik orqanları arasında genişləndirilməsinin önəmi qeyd olunub. Azərbaycan ilə Gürcüstanın xüsusi xidmət orqanlarının qarşılıqlı fəaliyyətinin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə də öz töhfəsini verdiyi vurğulanıb. Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Vaxtanq Qomelaurinin Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında informasiya mübadiləsinin aparılması və əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Dövlətimizin başçısı Gürcüstanın Baş naziri Georgi Kvirikaşvilinin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Gürcüstanın Baş nazirinə çatdırmağı xahiş edib.

## Rabitə və Yeni Texnologiyalar Nazirliyində kollegiya iclası keçirilib



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində 2016-cı ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasını rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov açaraq məruzə edib.*

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində görülən müvafiq işlər və yeni layihələr 2016-cı ilin birinci yarımilində də uğurla davam etdirilib. Hesabat dövründə nazirliyin "Huawei" şirkəti ilə bağladığı müqaviləyə əsasən, 10 ədəd yeni nəsil avtomat telefon stansiyası alınıb muxtar respublikaya gətirilib, nəzərdə tutulan yerlər üzrə qurulub. Eyni zamanda yeni alınan telefon stansiyalarının montaj tutumundan daha səmərəli istifadə olunması üçün mövcud şəbəkədə müvafiq yerdəyişmələr edilib. Ümumilikdə, 6 ay ərzində 4928 nömrətutumlu 17 ədəd yeni avtomat telefon stansiyası istismara verilib.

Rövşən Məmmədov qeyd edib ki, muxtar respublikada qurulmasına 2015-ci ilin iyun ayından başlanılan 4-cü nəsil Naxtel 4G mobil rabitə sistemi üzrə layihənin icrası bu ilin 6 ayında da davam etdirilib. Belə ki, hesabat dövrü ərzində əlavə 37 baza stansiyasında quraşdırma işləri başa çatdırılıb və beləliklə, istismara hazır olan 4-cü nəsil mobil baza stansiyalarının sayı 96-ya çatıb. Bundan əlavə, bu ilin əvvəlindən şəbəkənin qeydiyyat və hesabat sisteminin idarə olunması üçün (ümumilikdə, Billing adlanan) əsas və ehtiyat server avadanlıqları Naxçıvana gətirilib və 13 moduldan ibarət işçi proqramların hazırlanmasına başlanılıb. Hazırda sınaq işləri həyata keçirilir.

Bəhs olunan dövrdə, ümumilikdə, 1439 ədəd yeni telefon nömrəsi istifadəyə verilib.

Yeni tikilən kənd mərkəzlərinə və istifadəyə verilən telefon stansiyalarına arabağlantı üçün 61932 metr, "Evədək optika" layihəsi üzrə isə 43 fərdi mənzilə fiber-optik kabel xətti çəkilib.

"Əlincəqala" muzeyinin muxtar respublikanın distant təhsil sisteminə qoşulması təmin edilib.

Qeyd olunub ki, bu ilin may ayından etibarən "FİNCA" bankı ilə bağlanmış müqaviləyə əsasən, bankın müştərilərindən kredit vəsaitlərinin qəbuluna başlanıb. "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulması prosesi başa çatdırılıb.

Ötən dövrdə 2046 abunəçi genişzolaqlı internetlə təmin olunub. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi ilə rayon təşkilatları arasında telekommunikasiya şəbəkəsi qurulub. İnzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə yerləşən statistika işçilərinin otaqlarına 173 telefon xətti çəkilib, faks aparatları ilə təmin olunub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin uşaq hüquqlarının müdafiəsi üzrə elektron məlumat bankı hazırlanaraq bu məqsədlə alınmış serverə yerləşdirilib.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən Naxçıvan Turizm İnformasiya Mərkəzinin Azərbaycan, rus, ingilis dillərində *(turizm.nakhchivan.az)* internet saytı yenidən yığılıb. 76 dövlət orqanının saytında Naxçıvan portalının və Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytının bannerləri yerləşdirilərək keçidlər verilib. Bundan əlavə, muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların internetdə yerləşdirilməsini və bu məlumatların daim yenilənməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində Turizm İnformasiya Mərkəzinin əməkdaşları üçün seminar təşkil olunub.

Vurğulanıb ki, Naxçıvan televiziyasının internetdə canlı yayımının təşkili üçün server avadanlığı qurulub, xüsusi proqram təminatı və arxiv sistemi hazırlanıb, internet saytı yaradılıb, HD yayım üçün avadanlıq sifariş verilib.

Hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi ilə polis şöbələri arasında telekommunikasiya şəbəkəsi qurulub.

Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri hazırlanaraq istismara verilib. Bunun üçün idarələr arasında qapalı şəbəkə qurulub, mərkəzi server avadanlıqları alınıb və müvafiq proqram təminatı hazırlanıb, 80 təşkilatın sistemə qoşulması təmin edilib.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Çin Xalq Respublikasının "Huawei" şirkəti ilə birlikdə "Gələcəyin İKT sahəsindəki toxumları" adlı proqram-layihə həyata keçirilib. Layihə çərçivəsində Naxçıvandan olan 6 tələbə Çin Xalq Respublikasının Şenjen şəhərindəki "Huawei" şirkətinin Yay Təlim Mərkəzində iyun ayının 10-27 tarixləri arasında istehsalat təcrübəsi keçib", – deyən nazir onu da bildirib ki, 2016-cı ilin yanvar-iyun ayları ərzində "Kanal 35" televiziyasında "Ali məktəblərə qəbul imtahanlarına kömək", riyaziyyat və kimya fənlərinin tədrisi proqramları efirə vəsiqə alıb.

İclasda Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin İqtisadiyyat və mühasibat uçotu şöbəsinin rəisi Vaqif Səfərovun, Telekommunikasiya şöbəsinin rəisi Vidadi Naibovun, Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsinin rəisi Azər Seyidovun, "Naxçıvanpoçt" MMC-nin direktoru İlqar Sadiqovun, Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin rəis əvəzi Elşən Fətullayevin, Şərur Rayon Rabitə İdarəsinin rəisi Ərəstun Hüseynovun və Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin müavini Əli Mikayılovun çıxışları olub.

İclasa rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2016-cı ilin ilk 6 ayında öz işini təsdiq edilmiş tədbirlər planına uyğun qurub, gənclər arasında bədən tərbiyəsinin kütləviliyinə nail olunması üçün məqsədyönlü tədbirlər həyata keçirib, idman və gənclər sahəsində əsaslı dönüş yaradılmasına çalışıb. Ümumilikdə, 6 ay ərzində nazirlik tərəfindən dövlət gənclər siyasəti və idman sahəsində 163 tədbir icra edilib ki, bunlardan 90-ı gənclərlə iş, 73-ü isə kütləvi bədən tərbiyəsi və idman sahələrini əhatə edib.*

## Bu ilin birinci yarısı gənclər və idman sahəsində bir sıra yeniliklərlə yadda qalıb



Bu fikirləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya iclasında nazir Azad Cabbarov səsləndirib. Nazir bildirib ki, 2016-cı ilin müvafiq dövrü ərzində mütəmadi olaraq muxtar respublikanın şəhər və rayonlarında gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib, onların tarixi yerlərə və muzeylərə gəzintiləri təşkil olunub. Nazirlik tərəfindən müntəzəm olaraq yeniyetmə və gənclərin intellektual səviyyələrinin yüksəldilməsi məqsədilə "Nuh yurdu" intellektual oyunu keçirilib, muxtar respublika birincilikləri təşkil olunub. Həmçinin Gəncə şəhərində keçirilən "Xəmsə" milli intellektual oyununun VIII Azərbaycan çempionatında muxtar respublikanı təmsil edən komandaların iştirakı təmin edilib, "Əlincə" komandası II yerə layiq görülüb.

Qeyd olunub ki, bu il mart ayının 18-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə əlaqədar Gənclər və İdman Nazirliyi aidiyyəti təşkilatlarla birlikdə tədbirlər planı hazırlayıb, həmin plana əsasən, məktəblilərin, sağlamlıq imkanları məhdud uşaqların, aztəminatlı ailələrin uşaqlarının Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil edilib. "Naxçıvanı tanıyaq" devizi altında gənclərin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə, Duzdağ Fizioterapiya Mərkəzinə, Şahbuz Dövlət Təbiət Qoruğuna, Batabat Astrofizika Rəsədxanasına, "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksinə ekskursiyaları təşkil olunub. "Naxçıvanın turizm imkanları" mövzusunda fotomüsabiqə keçirilib, Ağbulaq İstirahət Mərkəzində "Gənclərin yay məktəbi" təşkil edilib, gənclərin muxtar respublikanın turizm potensialının təbliği sahəsində fəaliyyətləri gücləndirilib, Naxçıvanın turizm imkanlarını əks etdirən materiallar sosial şəbəkələrdə yerləşdirilib.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda futbol, boks, sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birincilikləri, karate-do, kikboksinq üzrə Naxçıvan Muxtar Respublika açıq çempionatları, "Naxçıvan – 2016" Beynəlxalq Şahmat Festivalı, kross qaçışı, basketbol, peyntbol üzrə Naxçıvan Muxtar Respublika turnirləri, paralimpiya üzrə beynəlxalq turnir, usta ağır atletlər arasında Avropa çempionatı keçirilib.

2016-cı ilin ötən dövrü ərzində muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakının təmin edildiyini bildirən nazir deyib ki, idmançılarımız Avropa çempionatlarında 3, beynəlxalq turnirlərdə 33, Azərbaycan birinciliklərində 32 medal olmaqla, cəmi 68 medal qazanıblar.

Vurğulanıb ki, ümumilikdə, Naxçıvan Muxtar Respublikasında 40 minə yaxın yeniyetmə və gənc idmanla məşğul olur. Nazirlik tərəfindən keçirilən idman tədbirlərində 5763-dən artıq idmançı iştirak edib.

2016-cı ilin ikinci yarısında qarşıda duran vəzifələrdən də geniş bəhs olunduğu kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayevin, Naxçıvan Şəhər və Şərur Rayon Gənclər və İdman idarələrinin rəisləri Xəyal Qurbanov və Ramil Dadaşovun çıxışları olub.

**Xəbərlər şöbəsi**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Şərur Rayon İcra Hakimiyyətində cari ilin birinci yarısının yekunlarına həsr olunmuş müşavirə keçirilib. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov çıxış edib.***

Bildirilib ki, 2016-cı ilin birinci yarısında aqrar sahədə müəyyən işlər görülüb, kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün ardıcıl tədbirlər həyata keçirilib. Belə ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına uyğun olaraq, 1324 nəfər torpaq mülkiyyətçisinə 7 min 436 hektar əkin sahəsinə görə 664 min 600 manat subsidiya, taxıl sahələrindən məhsuldarlığı artırmaq məqsədilə məhsul istehsalçılarına 1487 tondan çox gübrə verilib. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti Şərur rayon filialı tərəfindən kənd təsərrüfatının inkişafı üçün vətəndaşlara 1 milyon 682 min manat kredit verilib. Sahibkar və fermerlərə 150 min 200 manat dəyərində 25 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqlar lizinq yolu ilə güzəştli şərtlərlə satılıb. Bütün bunlar aqrar sahədə işlərin ahəngdar aparılmasına zəmin yaradıb. Belə ki, payızlıq taxıl əkinləri də daxil olmaqla, 17 min 115 hektar sahədə əkin keçirilib. 2016-cı ildə 8752 hektar sahədə yaz əkinləri aparılıb ki, bunun da 204 hektarını yazlıq arpa, 1120 hektarını qarğıdalı, 760 hektarını kartof, 2 min 52 hektarını bostan və tərəvəz bitkiləri, 491 hektarını paxlalı bitkilər, 31 hektarını günəbaxan və 4 min 91 hektarını yem bitkiləri təşkil edib. Əkin sahələrinin 7 min 436 hektarı taxıl sahələri olub.

Vurğulanıb ki, taxıl biçini mütəşəkkil aparılıb, sahələrdən bol məhsul götürülüb.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq, bu sahədə işlər davam etdirilib, rayonun bir neçə kəndində ayrı-ayrı torpaq mülkiyyətçiləri tərəfindən müxtəlif meyvə sortları üzrə tingçilik təsərrüfatları yaradılıb. Rayonda yaz ayları ərzində 13,5 hektar sahədə yeni meyvə bağları salınıb.

Qeyd edilib ki, 2016-cı ilin birinci yarısında 46 milyon 851 min manatdan çox, yaxud 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz çox sənaye məhsulu istehsal olunub.

Bəhs edilən dövrdə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 36 milyon 763 min manatdan çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 34 milyon 853 min manatdan çox olub.

Bu dövr ərzində Oğlanqala kəndində məktəb, kənd və xidmət mərkəzləri, Xanlıqlar kəndində “İmamzadə” ziyarətgahı, Mahmudkənddə futbol meydançası istifadəyə verilib.

Bildirilib ki, cari ilin 6 ayında rayonda 8 ədəd müxtəlif güclü transformator yarımstansiyası quraşdırılıb, 35 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılıb, yeni inşa edilmiş 56 evə elektrik xətti çəkilib.

Diqqətə çatdırılıb ki, 2016-cı ilin birinci yarısında vergilər və digər icbari ödənişlər üzrə 1 milyon 377 min 100 manat proqnoz tapşırığa qarşı 1 milyon 501 min 300 manat vəsaitin büdcəyə ödənilməsi təmin olunub.

“Rayon Məşğulluq Mərkəzində 2016-cı ilin birinci yarısında 273 nəfər işaxtaran qeydiyyata alınıb, həmin vətəndaşlardan 251 nəfəri müxtəlif sahələrdə daimi işlə təmin olunub”, – deyən icra başçısı bildirib ki, rayonda təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı istiqamətində də məqsədyönlü addımlar atılıb, uğurlu nəticələrə nail olunub.

Aparılan yoxlamalar nəticəsində Mərkəzi Xəstəxananın və kəndlərdə yerləşən tibb məntəqələrinin işində ciddi nöqsanların olduğu aşkar edilib.

2016-cı ilin birinci yarısında mədəniyyət işçiləri tərəfindən müəyyən işlər görülüb, gənclərin asudə vaxtlarının səmərəli təşkili təmin olunub.

Bütün bunlarla yanaşı, aparılan yoxlamalar zamanı rayonda yerləşən kitabxana, klub və mədəniyyət evlərində bir sıra nöqsanlar aşkar edilib. Belə ki, mədəniyyət işçilərinin işə davamiyyətinin aşağı olması, təmizlik işlərinin lazımi səviyyədə olmaması, iş planlarında göstərilən tədbirlərin vaxtında yerinə yetirilməməsi bunların əyani sübutudur.

İbrahim Məmmədov deyib ki, 2016-cı ili uğurla başa vurmaq üçün hər bir idarə, müəssisə və təşkilat öz işini bir daha təhlil etməli və qarşıya qoyulmuş vəzifələrin həlli üçün tədbirlər görməlidir.

Məruzə ətrafında müzakirələrdə rayon Statistika İdarəsinin rəisi Ramiz Rəsulovun, Maliyyə Şöbəsinin müdiri Sahib Musayevin, Vergilər Şöbəsinin müdiri Rafail Əliyevin, Dövlət Sosial Müdafiə Fondunun Şərur Rayon Şöbəsinin müdiri Firuz Novruzovun çıxışları olub.

* * *

***Culfa Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni icra başçısı Şükür Babayev açıb. Bildirib ki, Culfa rayonunda muxtar respublikamızda “Nizam-intizamın daha da möhkəmləndirilməsi ili” elan edilən 2016-cı ilin birinci yarısında bir sıra nailiyyətlər qazanılıb.***

Rayon iqtisadiyyatında aparıcı sahə olan kənd təsərrüfatının inkişafı ötən illərdə olduğu kimi, cari ilin birinci yarımilində də diqqət mərkəzində saxlanılıb. Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 2007-ci il 13 yanvar tarixli Sərəncamına uyğun olaraq, 2016-cı ilin ilk altı ayında kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faizi güzəştli şərtlərlə olmaqla, 343 min 800 manat dəyərində 698,4 ton mineral gübrə satılıb, 821 istehsalçıya 377 min 900 manat dövlət yardımı verilib.

Sahibkarların kənd təsərrüfatı texnikalarına olan tələbatının ödənilməsi məqsədilə aqrolizinq xətti ilə 8 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və aqreqatı alınıb sahibkarlara satılıb.

2016-cı ilin məhsulu üçün 2015-ci ilin payızında və cari ilin yazında 7718 hektar sahədə əkin aparılıb, 1 hektar yeni üzüm bağı salınıb. Əkilmiş sahələrin 4974 hektarını dənli və dənli-paxlalı bitkilər, 460 hektarını kartof, 489 hektarını tərəvəz, 130 hektarını bostan məhsulları, 108 hektarını qarğıdalı və günəbaxan bitkisi, 32 hektarını birillik ot, 856 hektarını isə cari ildə əkilmiş çoxillik otlar təşkil edib.

1 iyul 2016-cı il tarixə 4974 hektar dənli və dənli-paxlalı bitkilərin əkin sahələrinin 29,1 faizindən 3945 ton, 460 hektar kartof əkini sahəsinin 27,2 faizindən 976 ton, 489 hektar tərəvəz əkini sahəsinin 16,8 faizindən 262 ton, meyvə bağlarından 938 ton məhsul yığılıb. Hazırda məhsul yığımı davam etdirilir.

Qeyd olunub ki, rayonda ekoloji cəhətdən təmiz meyvə-tərəvəz məhsullarının yetişdirilməsi üçün əlverişli şərait vardır. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” bu sahəyə göstərilən dövlət qayğısının bir təzahürüdür. Proqramdan irəli gələn vəzifələrin icrası ilə bağlı rayonda meyvə tinglərinin əkilməsinə diqqət artırılıb. Bəhs olunan dövrdə 19,7 hektar sahədə yeni yaşıllıqlar salınıb, 6,3 hektar mövcud yaşıllıq sahəsində bərpa işləri aparılıb.

İcra başçısı deyib ki, rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına şərait yaradıb.

2016-cı ilin yanvar-iyun aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 14 milyon 316 min 100 manat investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 3,7 faiz artaraq 13 milyon 100 min 300 manat olub.

Cari ilin ötən dövründə Saltaq kəndində kənd məktəbinin, həkim ambulatoriyasının, kənd və xidmət mərkəzlərinin, su dəyirmanının tikintisi başa çatdırılıb, Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin inzibati və yardımçı binalarının, Gülüstanda kənd və xidmət mərkəzlərinin tikintisi davam etdirilib.

Rayonun sosial-mədəni və iqtisadi inkişafının mühüm sahələrindən biri olan yol tikintisi əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də diqqət mərkəzində saxlanılıb, yeni yolların çəkilişi və mövcud yolların təmiri istiqamətində ardıcıl tədbirlər həyata keçirilib.

Son illərdə olduğu kimi, cari ilin altı ayında da informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi üzrə tədbirlər davam etdirilib, əhaliyə göstərilən rabitə xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi diqqət mərkəzində saxlanılıb.

Hesabat dövründə Saltaq kəndində 384 nömrətutumlu yeni ATS quraşdırılıb, mövcud rabitə xətləri yenidən qurularaq 1200 metri fiber-optik kabel olmaqla, ümumilikdə, 5200 metr müxtəlif tutumlu kabel xətti çəkilib, rayon ərazisində olan mövcud rabitə xətlərində cari təmir işləri həyata keçirilib. Bu dövrdə rayonda 180 yeni telefon xətti çəkilib, 1843,8 min manat həcmində informasiya və rabitə xidməti göstərilib.

Qeyd olunub ki, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” işaxtaran vətəndaşların səmərəli məşğulluğunun təmin olunması üçün geniş imkanlar açıb. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2016-cı ilin birinci yarısında 214 iş yeri yaradılıb.

Əhalinin sosial müdafiəsinə göstərilən dövlət qayğısı ötən illərdə olduğu kimi, cari ilin ötən aylarında da davam etdirilib. Bu sahədə aparılan islahatlar aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına yönəldilib. 2016-cı ilin ilk altı ayında 273 aztəminatlı ailənin 1098 nəfər üzvünə 163 min 140 manat ünvanlı dövlət sosial yardımı ödənilib.

Şükür Babayev deyib ki, cari ilin ilk 6 ayının statistik təhlili rayonda iqtisadi fəaliyyətin bütün sahələrinin inkişafını əks etdirir. 2016-cı ilin birinci yarısının sosial-iqtisadi göstəricilərinin təhlili göstərir ki, hərtərəfli dövlət qayğısına, hər bir insan üçün yaradılan əlverişli şəraitinə baxmayaraq, fəaliyyətimizdə bir sıra nöqsanlara yol verilib. Aidiyyəti qurumlar fəaliyyətlərində yol verilən nöqsanların aradan qaldırılması üçün yaradılan əlverişli şəraitdən istifadə etməlidirlər.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Müəllimlər İnstitutu da birinci yarımilin nəticələri və qarşıda duran vəzifələrlə bağlı iclas keçirib.***



Tədbirdə məruzə edən institutun rektoru, professor Oruc Həsənli qeyd edib ki, müəllim hazırlığını həyata keçirən Naxçıvan Müəllimlər İnstitutunda əvvəlki illərdə olduğu kimi, cari ilin ötən altı ayı ərzində də tədrisin keyfiyyətinə xüsusi fikir verilib. Məhz bunun nəticəsi olaraq qış və yay imtahan sessiyalarında yüksək nailiyyətlər əldə edilib. Eyni zamanda institut tələbələri arasında ideya-siyasi tərbiyə işinin günün tələbləri səviyyəsinə yüksəldilməsi təmin olunub. Bu gün əsas vəzifə dövlətimizin göstərdiyi diqqət və qayğıya cavab olaraq əsl müəllim hazırlığını müvəffəqiyyətlə həyata keçirməkdən ibarətdir.

Vurğulanıb ki, ali təhsil müəssisələrinin qarşısında duran mühüm məsələlərdən ən başlıcası maddi-texniki bazanın möhkəmləndirilməsi və ondan düzgün istifadədir. Dövlətimizin diqqət və qayğısı nəticəsində institutumuzun maddi-texniki bazası xeyli möhkəmləndirilib. Eyni zamanda institut üçün yeni tədris korpusu tikilir və mövcud tədris binası əsaslı təmir olunur.

Ötən altı ay ərzində həm fakültələrdə, həm də kafedralarda təhsilin inkişaf etdirilməsi istiqamətində ciddi irəliləyişlər əldə olunub. Kafedralarda elmi-tədqiqat və elmi-metodik işlərin təşkili və yerinə yetirilməsi daim diqqət mərkəzində saxlanılıb. Elmi-tədqiqat işlərinin mövzularının 60-65 faizi regional problemlərə həsr edilib.

Bildirilib ki, elmi tədbirlərin təşkilinə və elmi pedaqoji kadrların hazırlanmasına ciddi önəm verilib. Təsdiq olunmuş plan üzrə konfrans və simpoziumlar vaxtlı-vaxtında keçirilib. İnstitut əməkdaşları tərəfindən dövri mətbuatda müasir dövrün aktual problemlərinə dair məqalələr, yazılar dərc olunub, radio və televiziyada mütəmadi çıxışlar olub, diskussiyalar aparılıb, elmi-praktik konfranslar keçirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində 2016-cı ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***



Kollegiya iclasında Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov məruzə ilə çıxış edərək bildirib ki, hesabat dövründə Naxçıvan Muxtar Respublikasının bütün yaşayış məntəqələrində əhaliyə məxsus malqara arasında xəstəliklərə qarşı diaqnostik, profilaktik və müalicəvi tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb. Diaqnostik olaraq brusellyoz xəstəliyini müayinə məqsədilə 37151 baş iribuynuzlu, 56782 baş xırdabuynuzlu, 7862 baş törədici heyvanlardan qan nümunələri götürülərək baytarlıq laboratoriyalarında seroloji müayinədən keçirilib. Eyni zamanda manqo xəstəliyinə görə 441 baş təkdırnaqlı, epididimit xəstəliyinə görə 7842 baş törədici heyvanlarda, vərəm xəstəliyinə görə 26757 baş iribuynuzlu heyvanlarda diaqnostik müayinələr aparılıb.

Qeyd olunub ki, profilaktik məqsədlə kənd təsərrüfatı heyvanları arasında qarayara xəstəliyinə qarşı 87659 baş iribuynuzlu, 676199 baş xırdabuynuzlu, 3748 baş təkdırnaqlı, dabaq xəstəliyinə qarşı 98114 baş iribuynuzlu, 433682 baş xırdabuynuzlu, leptospiroz xəstəliyinə qarşı 583 baş iribuynuzlu, emkar xəstəliyinə qarşı 34659 baş iribuynuzlu, bradzot xəstəliyinə qarşı 59133 baş xırdabuynuzlu heyvanlarda, nyukasl “H” (taun) xəstəliyinə qarsı 457576 baş quşlarda, la-sota (yalancı taun) xəstəliyinə qarşı 49185 baş cücələrdə, çiçək xəstəliyinə qarşı 5485 baş xırdabuynuzlu, brusellyoz xəstəliyinə qarşı 50409 baş xırdabuynuzlu, pasterellyoz xəstəliyinə qarşı 200 baş iribuynuzlu heyvanlarda, 44996 baş quşlarda, aueski xəstəliyinə qarşı 7735 baş iribuynuzlu, trixofitiya xəstəliyinə qarşı 953 baş iribuynuzlu, nodulyar dermatit xəstəliyinə qarşı 1605 baş iribuynuzlu heyvanlarda peyvəndləmə tədbirləri aparılıb və hazırda bu istiqamətdə işlər davam etdirilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının baytarlıq laboratoriyalarında mal-qara və ev quşlarının parazitlərlə yoluxma dərəcəsini müəyyən etmək üçün 5 adda helmentoloji analizlər aparılıb və əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün baytar sanitar ekspertiza laboratoriyalarında və bakteriologi laboratoriyalarda 2692 ədəd nümunə infeksion xəstəliklərə görə bakterioskopik müayinələrdən keçirilib. Eyni zamanda bütün yaşayış məntəqələrində, o cümlədən mal-qara saxlanılan tövlələrdə, yataq yerlərində, quş damlarında və sair 3091 obyektdə 680963m$^2$ sahədə dezinfeksiya tədbirləri həyata keçirilib.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin Epizootiya əleyhinə mübarizə və müalicə profilaktikası sektorunun müdiri Şəmsəddin Nağıyev, Elmi-Tədqiqat Baytarlıq Mərkəzinin direktoru Qadir Fərhadov, Ordubad və Şahbuz Rayon Baytarlıq idarələrinin rəisləri Pamir Hüseynov və Qənbər Behbudov görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı çıxışlar ediblər.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov yekun vurub.

**Xəbərlər şöbəsi**

*Bulaqların bir səmtədir axarı,*
*Salvartının xoş görünür baxarı,*
*Biçənəkdən at səyridib yuxarı,*
*Yalmanına yata-yata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

# Batabat ulu məmləkətimizin mərcan gözüdür

## Şahbuz rayonunun bu qol üstdə yerləşən yaşayış məntəqələri müasirlik donundadır

***Sözün həqiqi mənasında, Batabat Naxçıvan adlı ulu məmləkətimizin mərcan gözüdür. İlin bu fəslində qoynunu insanlara açan bu füsunkar yaylaq son illər əsl gülüstana çevrilib, təmizlik, səliqə-sahman göz oxşayır.***



### Yolumuz Şahbuz şəhərinədir

Batabata getmək fikrimiz qətiləşəndə yadıma kiçik Şahbuz rayonunun sovet dönəmi düşdü. Ucqar əyalət timsallı təbii gözəlliklər diyarı elə bil yaddan çıxmış bir yurd yeri idi. Kənddən seçilməyən indiki Şahbuz şəhərinin ovaxtkı miskin görkəmi, darısqal, tozlu-torpaqlı küçələri buraya rayon mərkəzi deməyə imkan vermirdi. Bu gün o mənzərələr yoxdur daha. Şahbuz şəhəri müasirliyə qovuşub. Rayon mərkəzinin girəcəyindəki Bayraq Meydanından başlayaraq gözəl mənzərələr insanı ovsunlayır. Belə mənzərələr elə təəssüratlar yaradır ki, neçə illər qabaq gördüklərini bir an belə, xatırlamaq istəmirsən. Və düşünürsən ki, şəhər də, kənd də, qəsəbə də insan kimidir, qayğı istəyir, nəvaziş istəyir. Bu gün Şahbuzun hər bir ünvanı belə qayğıdan yetərincə bəhrələnib. Rayon mərkəzinin Heydər Əliyev prospekti boyunca ucaldılmış inzibati və ictimai yaşayış binaları göz oxşayır. Rayonun bütün təşkilatları müasir iş şəraiti ilə təmin olunmuş binalarda fəaliyyət göstərirlər. Binaların yerləşdikləri ərazilərdə yaşıllıqlar, gülzarlıqlar salınıb. Parklarda həmişə qələbəlikdir. İnsanlar burada gəzişir, söhbətləşir, asudə vaxtlarını səmərəli keçirirlər. Rayon İcra Hakimiyyətinin yaxınlığındakı parkın əvvəlki görkəmini yadıma salmaya bilmirəm. Primitiv qaydada tikilmiş ictimai iaşə obyektləri, obyektlərin ətrafında hökm sürən antisanitar vəziyyət...

Bu gün parkda istifadəyə verilmiş çay evi şahbuzlulara yüksək səviyyədə xidmət göstərir. Stolların birinə yaxınlaşırıq. Qonaqpərvərliklə stul çəkib oturmağımı xahiş edirlər. Əyləşir və onlara sual verirəm:

– Buranın əvvəlki görkəmini xatırlayırsınızmı?

Sonradan adını öyrəndiyim müəllim Sahib Hüseynov cavab verir:

– Xatırlamasaq, belə gözəl ünvanın qədrini bilmərik. Buranı bizim üçün, bizim yaxşı istirahətimiz üçün tikiblər. Odur ki, hər bir şahbuzlu rayonda tikilənləri göz bəbəyi kimi qorumağa çalışır. Çalışır ki, sonrakı nəsillər də bunlardan istifadə edə bilsinlər.

### Batabata gedən yol Kolanıdan keçir

Bu kənd rayonun iri yaşayış məntəqələrindən biridir. Kəndin 1800 sakini var. Dadlı-tamlı meyvələri, keyfiyyətli balı, dişgöynədən suyu, digər kənd təsərrüfatı



məhsulları ilə tanınan Kolanıya gedən yol müasir standartlar səviyyəsində yenidən qurulub. Ümumilikdə isə, demək olar ki, Şahbuz rayonu ərazisindəki yolların hamısına son illərin quruculuq tədbirlərindən pay düşüb. Bu isə o deməkdir ki, nəqliyyatın intensiv hərəkəti təmin olunub. Bir yaşayış məntəqəsindən digərinə gedən insanlar belə rahat yolların salınmasını onlara göstərilən qayğı kimi dəyərləndirirlər.

Budur, Kolanı kəndinə çatırıq. Kənddə son illərin quruculuq tədbirləri olan kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası 2008-ci ildə sakinlərin ixtiyarına verilib. Bu ünvanlarda yüksək iş şəraiti yaradılıb. Kənd mərkəzində fəaliyyət göstərən aidiyyəti qurumlar sakinlərin üzləşdikləri problemlərin həllinə həssaslıqla yanaşırlar. Burada həm də əhaliyə mədəni xidmət göstərilir. Zəngin fondu olan kitabxana Kolanı sakinlərinin ixtiyarına verilib. Mədəniyyət evinin fəaliyyəti də razılıq doğurur. Kənd mərkəzinin zirzəmisində musiqi məktəbi fəaliyyət göstərir. İstedadlı uşaqların cəlb edildiyi məktəbin uğurları ildən-ilə artır. Kənddəki yeni quruculuq ünvanları barədə söhbət edən kənd ziyalısı İdris Mustafayev deyir ki, muxtar respublikanın bütün kənd yaşayış məntəqələrini əhatə edən belə tədbirlər kəndlərimizi müasirliyə qovuşdurmaqla, həm də sosial-iqtisadi inkişafımızdan soraq verir. Bu inkişafı hər bir Kolanı ailəsinin timsalında görmək mümkündür. Təbii ki, inkişaf insanların yaşayıb-yaratmaq əzmini daha



da yüksəldir. Kənd adamları da belə əzmlə muxtar respublikada keçirilən tədbirlərə qoşulur, qədim diyarımızın daha da çiçəklənməsinə çalışırlar. Əkir, becərir, daxili bazara məhsul çıxarır. Bunun üçün də kənd adamlarına hərtərəfli qayğı göstərilir. Onlara kreditlər verilir, torpaq mülkiyyətçiləri keyfiyyətli toxum sortları ilə təmin olunur, digər yardımlardan istifadə edirlər.

Kolanı kənd sakini İsa Alməmmədov isə bu yurd yerinə göstərilən digər bir qayğıdan danışır. Mart ayından başlayaraq Kolanıda 360 şagird yerlik yeni məktəb binasının tikintisi aparılır. Üç mərtəbədən ibarət olacaq yeni məktəb binasında tikinti işləri keyfiyyətlə həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinin inşaatçıları öhdələrinə götürdükləri obyekti vaxtında təhvil vermək üçün səylərini əsirgəmirlər.

### Dağlar qoynunda qərarlaşan Biçənək

Kolanıdan xoş təəssüratlarla ayrılıb Biçənəyə üz tuturuq. Şüşə kimi asfalt yol bizi 5-10 dəqiqədən sonra Biçənəyə çatdıracaq. Əyləşdiyimiz maşının pəncərəsindən içəri dolan xəfif meh qəlbimizə bir sərinlik gətirir. Bu sərinlik getdikcə artır. Dağların qoynunda yerləşən yurd yerinə çatırıq. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun bu kəndin adının etimologiyası ilə bağlı gəldiyi qənaəti xatırlayıram. Alim yazırdı ki, çox haqlı olaraq bu adın mənşəyini tədqiqatçılar qədim türk peçeneq tayfasının adı ilə bağlayırlar. Mahmud Kaşğarlı qeyd edir ki, peçeneq tayfası oğuz tayfalarından biridir. Bu fakt türk sultanı Əbülqazi Bahadır xanın "Seçere-i terakime" əsərində də öz əksini tapıb.

Akademik Ziya Bünyadov Biçənək toponimində qədim türk peçeneq tayfa adının əks olunduğunu göstərib, ondan sonra dilçi və toponimist alimlərimiz də bu məsələyə eyni mövqedən yanaşıblar. Adil Bağırov bu fikrə tərəfdar olaraq belə qənaətə gəlirdi ki, Biçənək sözü qədim peçeneq tayfa adını özündə yaşadan onomastik vahiddir.

Bu gün Biçənək öz müasir həyatını yaşayır. Muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərindən bu kəndə də pay düşüb. 2001-ci ildə burada yeni məktəb binası inşa olunub. 2008-ci ildə biçənəklilər kənd və xidmət mərkəzlərinin açılışlarının sevincini yaşayıblar. Kənd mərkəzinin binasında həm də feldşer məntəqəsi yaradılıb. 2012-ci ildə kənd məktəbinin binası tamamilə yenidən qurulub. Kənd sakini Şəhla Bayramova deyir ki, həyata keçirilən bu tədbirlər – Kolanıdan Biçənəyə qədər olan yolun yenidən qurulması kənddən bir qədər aralıda yerləşən Batabat yaylağına gediş-gəlişi xeyli artırıb. Elə ki istilər düşməyə başladı, ta payızın soyuqlarınadək Batabat yaylağı insanlarla dolu olur. Onlar da Biçənəyin bugünkü həyatını yaxından görürlər. Sevinirik ki, belə abad yurd yerimiz var.

### Bu da Batabat yaylağı və ya arıçılarla söhbət

Yaylaq yenə istirahətə gələn insanlarla doludur. Bizimsə diqqətimizi yaylağın müxtəlif ərazilərində gördüyümüz arı qutuları cəlb edir. Öyrənirik ki, hər il yaz aylarından başlayaraq buraya muxtar respublikamızın müxtəlif bölgələrindən arı ailələri gətirilir. Ərazinin füsunkar təbiəti, təmiz havası, suyu, gülü, çiçəyi keyfiyyətli bal üçün ən gözəl xammaldır. Babək rayonunun Cəhri kənd sakini Arzu Axundov, Şahbuz rayonunun Kolanı kənd sakini Etibar Səfərov, Şahbuz şəhər sakini Vidadi Quliyev və başqaları ilə həmsöhbət oluruq. Kolanılı Etibar Səfərov deyir ki, 120 arı ailəsi bəsləyir. Hər il də yüksəkkeyfiyyətli məhsul istehsalına nail olur. Buna başlıca səbəb arı ailələrini Batabat yaylağında saxlamasıdır. Onun sözlərini 30 arı ailəsi bəsləyən cəhrili Arzu Axundov da təsdiq edir.

### Ayrılmaq vaxtı çatıb

Yadıma yenə İslam Səfərlinin misraları düşür:

*Vüqarlıdır zirvələrin, qaşların,*
*Üzə gülür qayaların, daşların.*
*Mən İslamam, öz səsimi quşların*
*Nəğməsinə qata-qata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

Muxtar MƏMMƏDOV

# İstehsalatda bədbəxt hadisələrdən icbari sığorta mühüm sığorta növüdür

***İstehsalatda bədbəxt hadisələrdən icbari sığorta insanların həyatına və sağlamlığına, əmək qabiliyyətinə dəyən zərərlərin əvəzinin ödənilməsinə xidmət edən mühüm bir sığorta növüdür. Onun icbari qaydada tətbiq olunması isə ictimai zərurətdən irəli gəlib, həm işəgötürənin, həm də işçilərin mənafeləri burada ön planda tutulur.***

İnsanın sağlamlığı onun ən qiymətli sərvətidir. O təkcə özü üçün deyil, həm də bütün cəmiyyət üçün dəyərlidir. Bununla belə, insanın əmək fəaliyyəti müxtəlif risklərlə müşayiət olunaraq onun əmək qabiliyyətinin itməsinə də səbəb ola bilər. Misal üçün, istehsalatda texniki avadanlıqlarla ehtiyatsız davrandıqda, yaxud bir anlıq diqqətsizlik etdikdə baş verən hadisələr kəskin nəticələr doğura bilər və ya zərərli iş prosesi ilə əlaqədar olaraq müxtəlif peşə xəstəlikləri törənər. Görülən bütün qabaqlayıcı tədbirlərə və yeni texnologiyaların tətbiqinə baxmayaraq, bəzən qaçılmaz olan belə hadisələr nəticəsində dəymiş zərərlərin əvəzinin ödənilməsi üçün vaxtında sığorta olunmaq çox mühüm əhəmiyyət daşıyır.

Bu məqsədlə ölkəmizdə 11 may 2010-cu ildə qəbul edilmiş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılan icbari sığorta hər bir işçinin və onun sahibkarının maraqlarına xidmət edir. Bu qanuna əsasən, tətbiq olunan icbari sığorta istehsalatda baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində sığorta olunanların əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı sığorta ödənişlərinin verilməsini nəzərdə tutur. Əgər hər hansı bir bədbəxt hadisə baş vermişsə, verilən həmin ödənişlər iş vaxtı əmək qabiliyyətini itirmiş şəxslərin və ya onların himayəsində olmuş digər insanların maddi təminatına kömək edir.

İcbari sığortanın bu növü kimlər üçün tətbiq olunur? Ölkəmizdə qüvvədə olan qanuna əsasən, işəgötürənlərlə bağlanmış əmək müqaviləsi əsasında işləyən hər bir işçi, dövlət orqanlarında, idarə, müəssisə və təşkilatlarda çalışanlar, sahibkarlıq və fərdi qaydada əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, habelə azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum olunmuş və işləyən şəxslər istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən icbari qaydada sığorta olunmalıdırlar. Bunlardan əlavə, həmin qanuna görə istehsalat təcrübəsi keçən tələbələr, müəssisələrdə işə cəlb olunmuş hərbi qulluqçular, hərbi və fövqəladə vəziyyət rejimində işlərin yerinə yetirilməsinə cəlb olunmuş şəxslər də bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta olunmalıdırlar. Bu şəxslərin əmək fəaliyyətini yerinə yetirdiyi zaman bədən üzvlərinin zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin şəkildə pozulması, o cümlədən əlverişsiz və zərərli istehsalat amillərinin təsiri ilə yaranan xroniki və ya kəskin xəstəlik halları sığorta hadisəsi hesab edilir. Bağlanmış müqaviləyə əsasən, belə hallar baş verdikdə sığorta ödənişi almaq hüququna malik faydalanan şəxsə onun məruz qaldığı maddi itkilərin ödənilməsi məqsədilə sığorta məbləği ödənilir. Lakin onu da qeyd etmək lazımdır ki, istehsalatda bədbəxt hadisələrin baş verməsi və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiqi zamanı baş vermiş sığorta hadisəsinin sığortaolunanın özü tərəfindən qəsdən törədilmiş hərəkətin nəticəsi olduğu, habelə onun sərxoş vəziyyətdə olması halında baş verdiyi zaman sığortaçı ödəyəcəyi sığorta ödənişindən imtina hüququna malikdir.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi və ölüm ilə əlaqədar sığortaolunan və yaxud faydalanan şəxslərin sığorta ödənişi almaq hüququ vardır. Bu sığorta növü üzrə faydalanan şəxslər dedikdə, istehsalatda baş vermiş sığorta hadisəsi nəticəsində zərər çəkmiş şəxslərin özü və ya sığorta hadisəsi nəticəsində sığortaolunanın ölməsi halında onun himayəsində olmuş əmək qabiliyyəti olmayan şəxslər, habelə sığortaolunanın ölümündən sonra doğulmuş uşaqları və digərləri faydalanan şəxslər hesab olunurlar.

İstehsal sahəsində çalışan hər bir işçi üçün zəruri olan bu sığorta növü üzrə sığortahaqqının məbləğinə gəldikdə bu, xeyrinə icbari sığorta müqaviləsi bağlanılan şəxslərin müəyyən olunmuş qaydada hesablanan birillik əməkhaqqı fondunun sığorta tarifinin faiz nisbəti əsasında hesablanır. Sığorta tarifi isə istehsalatda fəaliyyət növündən asılı olaraq müəyyən olunmuş peşə riskinin dərəcəsindən və sığortaolunanların kateqoriyalarından asılıdır. Belə ki, bu məbləğ 0,2 faizdən 2 faizədək müəyyənləşdirilir.

Hər bir işçinin iş yerində baş verə biləcək bədbəxt hadisələrdən və peşə xəstəliklərindən peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın həyata keçirilməsi işəgötürənin qanunvericiliklə müəyyən olunmuş vəzifəsi olmaqla bərabər, həm də hər bir işçinin qanunla təsbit edilmiş haqqıdır. İşəgötürən sahibkar tərəfindən bu, öz işçilərinin sosial müdafiəsinin tam təmin edilməsi, işçilərin maraqları baxımından isə gələcəkdə öz maddi təminatlarını risk altına almamaqdan ibarətdir. Lakin bəzi hallarda rast gəlinən hadisələrin təhlili göstərir ki, işəgötürənlər tərəfindən işçilərin sığortalanmaması gələcəkdə hər hansı bir şəraitdə baş verə biləcək hadisələrə qarşı onların köməksiz qalmasına gətirib çıxarır. Ona görə də həm işçilərin, həm də işəgötürən sahibkarların mənafelərinə xidmət edən bu icbari sığorta növünün bütün istehsalat obyektlərində aparılması müasir dövrün tələbi kimi qarşıda duran bir vəzifədir.

Əli CABBAROV

***Uşaqlarda serebral iflici, autizm, nevroz, daun sindromu və bu kimi digər xəstəliklərin son illərdə artması, onların yaranma səbəbləri və müalicəsindəki yeniliklərlə bağlı əhalinin məlumatlandırılması səhiyyə sistemində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biridir. Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin baş həkimi Rəşadət Nabatov və Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanasının Poliklinika şöbəsinin həkim-nevropatoloqu Zöhrə Maqsudova söhbət zamanı bildirdilər ki, müasir dövrdə doğulan hər 1000 uşaqdan 10-u uşaq serebral iflici xəstəliyindən əziyyət çəkir. Baş beyinin zədələnməsi nəticəsində əmələ gələn uşaq serebral iflici döldə, yeni doğulan uşaqlarda, yaxud uşaqların ilk aylarında ortaya çıxır. İflic xəstəliyi zamanı müxtəlif hərəkət pozğunluqları, piramid yolların (hərəkət sistemi), qabıqaltı düyünlərin, beyincik və beyin sütununun patologiyası əmələ gəlir. Xəstəlikdən əziyyət çəkənlərin çoxunda epileptik tutmalar, nitq qüsuru olur. Müxtəlif şəkildə psixi pozulmalar – yüngül əqli geridə qalmadan imbesillik (əqli zəifliyin ağır növü) dərəcəsinə qədər çata bilir.***

# Nevroloji xəstəliklərin müalicəsində hippoterapiyanın əhəmiyyəti



Uşaqlarda autizm sindromu ümumi psixoloji inkişaf pozuntusu qrupuna aiddir. Sindrom 3 yaşa qədər aşkar olunmağa başlayır. Uşaqlarda özünəqapanma, təkliyə canatma, stereotip davranış, fəaliyyətinin və yaradıcılıq qabiliyyətinin zəif olması qeydə alınır. Xəstələrin yarısından çoxunda əqli inkişaf geriliyi olur. Yaş artdıqca xəstələrdə ətrafa soyuq münasibət, monoton emosional reaksiya müşahidə edilir.

Nevroz və nevrotik reaksiya isə sinir sisteminin funksional xəstəliyi olub uşaqlar arasında daha geniş yayılıb. Ailədə olan münaqişə, artıq psixoloji yüklənmə, ali sinir sisteminin zəifliyi, kompüter və mobil telefondan həddən çox istifadə, istirahətin qeyri-düzgün təşkili və digər bu kimi faktorlardan yaranan belə hallarda uşaqlar əsəbilik, oyanıqlıq, əhəmiyyətsiz bir şeydən hirslənmə, yuxunun pozulması, başağrısı, başgicəllənmə, yorğunluq, ümumi zəiflikdən şikayətlənirlər.

Daun sindromu irsi genetik xromosom xəstəliyidir. Bu insanlarda 46 xromosom əvəzinə 47 xromosom mövcud olur. Xromosom və onlardakı genlər insanın fizioloji və psixoloji vəziyyətinə nəzarət edən, daha doğrusu, insanı şəxsiyyət kimi formalaşdıran əsas ünsürdür. Xromosom dəsti sabitdir, ancaq bəzi amillər bu sistemi poza bilir. Nəticə etibarilə uşağın sahib olduğu artıq xromosom onun həyatına təsir edir. Bu uşaqlar xüsusi görkəmə malik olmaqla bərabər, bir-birlərinə bənzəyir, onlarda zəka geriliyi qeydə alınır. Onların boyu nisbətən alçaq, yaddaş qabiliyyətləri az, diqqətləri dağınıq olur, nitqləri təmiz olmur. Amma güclü təqlid bacarığına malik olurlar.

Uşaqlarda nevroloji xəstəliklərin diaqnozunun tez qoyulması və müalicəyə vaxtında başlanması müəyyən nəticə əldə etməyə imkan verir. Mərkəzi sinir sisteminin zədələnməsinin vaxtında aşkar edilməsi və lazımi müalicə ocaqlarına göndərilməsi üçün bütün yeni doğulmuş uşaqların nevroloji müayinəsi aparılmalıdır.

Xəstəliyin müalicəsi ilə bağlı mütəxəssislər bildirdilər ki, hərəkət funksiyalarının bərpa və inkişafında müalicə bədən tərbiyəsi, masaj, balneoterapiya (vannalarla müalicə), fizioterapiya mühüm əhəmiyyət kəsb edir. Uşaq serebral iflicində müalicənin yaxşı nəticə verməsi üçün uşaq nevropatoloqu və ortoped birlikdə fəaliyyət göstərməlidirlər.



Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasının Fizioterapiya və reabilitasiya şöbəsində bu xəstələrin müalicəsi üçün istifadə olunan hər cür fizioterapiya avadanlıqları var və balneoterapiya fəaliyyət göstərir. Bunlarla yanaşı, uşağın psixi inkişafını yaxşılaşdırmaq məqsədilə xüsusi müalicə kursu da aparılmalıdır.

Müsahiblərimin verdiyi məlumata görə, uşaq nevroloji xəstəliklərinin fizioterapevtik müalicə üsullarından biri də hippoterapiyadır (atla müalicə üsulu). At minmək insanların sağlam həyat tərzi keçirməsində, prostat vəzin, hərəkət-dayaq sisteminin, keçirilmiş insult və digər xəstəliklərin müalicəsində, böyrəklərdə və öd kisəsində olan daşların təbii üsulla salınmasında əhəmiyyətlidir. Uşaqlarda psixi inkişafın yaxşılaşdırılması vasitələrindən biri olan hippoterapiya latın sözü olub, "hippo" – at, "terapiya" – müalicə deməkdir. At uşaq və ətraf aləm üçün birləşdirici vasitədir. Hippoterapiyada uşaq atla ünsiyyət saxlamağa çalışaraq onu özünə dost bilir. Bu amil isə uşaqlarda nevroloji xəstəliklərin müalicəsində mühüm əhəmiyyət kəsb edir. Uşaq at minən zaman təhlükəsiz hesab etdiyi öz daxili aləmində qalmaqla bərabər, ətraf mühitlə əlaqə saxlamağa məcbur olur.

Hippoterapiyanın unikallığı həm fiziki, həm də psixi-emosional baxımdan faydalı olmasındadır. At terapiyası ətraf mühitlə harmonik münasibətlərin qurulmasına köməklik göstərir, motivasiyanı artırır. Yaddaşı gücləndirir, eyni zamanda diqqəti toplamağa köməklik edir. Hərəkətlərin ardıcıllığını planlaşdırmaq məcburiyyəti psixi prosesləri aktivləşdirir. Sosial mühitə adaptasiya baxımından da hippoterapiya əvəzsizdir. Çəkingən, eləcə də autizmli uşaqlar atla ünsiyyətdən sonra sosiallaşmağa başlayırlar. Hippoterapiyanın özəlliklərindən biri budur ki, pasiyent fiziki mənada ağrı çəkmir. Üstəlik, uşaqlar müalicə olunduqlarını başa düşmürlər. Onlar atla ünsiyyət qurmağa çalışırlar, bu isə istənilən nəticənin daha tez zamanda əldə edilməsinə yardımçı olur.

Hippoterapiya, ilk növbədə, əzələ sisteminə təsir edir. Yıxılmamaq üçün edilən reflektiv hərəkətlər həm sağlam, həm də zədələnmiş əzələləri hərəkətə gətirir. At sürən zaman uşaqlarda, eləcə də digər nevroloji xəstələrdə hərəkətlərin korreksiyası, koordinasiyası tənzimlənir. Baş beyinin qanla təchizatı yaxşılaşır. At minən zaman uşaq atla ünsiyyət yaratmağa çalışır və atın hərəkətinə diqqət edərək öz hərəkətlərini ona uyğunlaşdırır, bu isə onlarda insanlarla ünsiyyətin formalaşmasına kömək edir. Nəticədə, uşaqlarda diqqətin cəmləşməsi, yaddaşın yaxşılaşması artır. Müalicəyə qatılan uşaqlarda ilk günlər aqressiv davranışlar yarana bilər, ancaq bu, keçici haldır. Terapiyanın sonrakı gedişlərində aqressivlik tədricən azalır, atlarla, digər uşaqlarla ünsiyyət daha da yaxşılaşır.

Müalicənin birinci mərhələsi mütəxəssis nəzarəti altında heyvana toxunmaqdan başlanır. Bəzən qorxu hissi əks reaksiyalara səbəb ola bilər. Lakin bunlar keçicidir, zamanla uşaqlarda qorxu hissi tədricən azalır. Müalicənin ikinci mərhələsi atın belində davam etdirilir. Təsdiq olunub ki, atlarda artıq miqdarda müsbət enerji var. Atlarla təmasda olan uşaqlarda müsbət enerjinin təsirindən onlarda əhval-ruhiyyənin, toxuma və orqanların qan təchizatının, maddələr mübadiləsinin yaxşılaşması qeydə alınır, onlarda müsbət emosiya yaranır. Zaman keçdikcə uşaq nevroloji xəstələrdə psixi proseslər aktivləşir, mühakimə yürütmək qabiliyyəti çoxalır, ətraf mühitlə əlaqə güclənir, ünsiyyət artır. Bütün bunlar isə xəstələrin cəmiyyətə inteqrasiyasına müsbət təsir edir. Mütəxəssislərin rəyinə görə, gün ərzində minimum 30 dəqiqə atla təmasda olmaq kifayətdir. Bu terapiya 6 ay davam etsə, daha yaxşı olar. At terapiyası zamanı qazanılmış vərdişlər sonra itirilmir, həyat boyu qalır. Xüsusilə yeniyetməlik və keçid dövrünü yaşayanlarda, öz yaşıdları ilə ünsiyyət qura bilməyən uşaqlarda atla daxili ünsiyyət özgüvəni bərpa edir. Əlil arabasında olan uşaqlar həmişə aşağıdan yuxarıya baxmağa öyrəşiblər. Atda olan zaman onlar üstünlük əldə edirlər və bu, onlarda psixoloji güvən yaradır.

Müsahiblərim məlumat üçün bildirdilər ki, qədim dövrlərdən atın mənfi enerjini götürdüyü, əvəzində isə müsbət enerji ötürdüyü barədə inanclar mövcuddur. Bu barədə ilk məlumatlara tibb elminin banisi hesab olunan Hippokratın yazılarında rast gəlinir. XVIII əsrin ortalarında ensiklopediyaçı Deni Didro at sürmək haqqında traktatında yazır ki, fiziki məşqlər sırasında ilk yerdə at sürmə dayanır. Bu üsulla bir çox xəstəlikləri müalicə etmək olar.

Hippoterapiyanın ibtidai müalicə növü V əsrdə Roma və Yunanıstanda tətbiq edilib. XIX əsrdə başlanan elmi araşdırmalar hippoterapiyanın faydalarını üzə çıxarıb. Məlum olub ki, hiperaktiv diqqət çatışmazlığı, autizm, serebral iflic, inkişaf pozğunluqları, daun sindromu, eşitmə və görmə çatışmazlıqları, nitq pozğunluqları, onurğa sütunu zədələnmələri kimi problemlərdən əziyyət çəkən uşaq və gənclərin müalicə və reabilitasiyasında hippoterapiyanın əhəmiyyəti böyükdür. Bu gün Şərq ölkələrində, o cümlədən Azərbaycanda da hippoterapiyadan istifadə olunur. Məqsəd xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərin reabilitasiyası və asudə vaxtının səmərəli təşkilidir.

Babək rayonunun Badaşqan və Yarımca kəndlərinin arasındakı ərazidə fəaliyyət göstərən Naxçıvan Atçılıq Klubu digər təyinatları ilə yanaşı, həm də muxtar respublikada hippoterapiyanın təşəkkül və inkişafında müəyyən rol oynaya bilər. Klubda ərəb, ingilis, ispan, Azərbaycanın məşhur Qarabağ və Naxçıvan atları vardır.

Burada uşaqların daha çox sevdiyi və onların zövqünə uyğun kiçikboylu atlar – ponilər xüsusi qeyd edilməlidir. Həftənin bütün günləri fəaliyyət göstərən klubda uşaqların istirahəti, müalicəsi və təhlükəsizliyi üçün hər cür şərait yaradılıb. Qeyd etmək lazımdır ki, xəstə uşaqlar və təhsildə yüksək nəticə əldə edən şagirdlər klubdan pulsuz istifadə edirlər.

Müsahiblərim onu da vurğuladılar ki, muxtar respublikada əhalinin sağlamlığının qorunması üçün son illərdə bir sıra mühüm tədbirlər həyata keçirilib. Dünya standartlarına uyğun səhiyyə müəssisələri tikilib istifadəyə verilib və ən müasir tibbi avadanlıqlarla təchiz olunub. Artıq muxtar respublikada, demək olar ki, bütün profillər üzrə xəstələrin müayinə və müalicəsi müvəffəqiyyətlə həyata keçirilir.

Xəstələr arasında yüksək reabilitasiya göstəricilərinə nail olmaq üçün fizioterapiya müalicə üsullarından da geniş istifadə olunur. Naxçıvan Muxtar Respublika Xəstəxanasının Fizioterapiya və reabilitasiya şöbəsindəki müasir fizioterapiya avadanlıqları, Naftalan və digər vannalarla, masajla müalicə üsulları həmin xəstəliklərin müalicəsində mühüm əhəmiyyətə malikdir.

*Qeyd edildiyi kimi, hippoterapiya nevroloji, ortopedik xəstəliklərin müalicəsində çox yüksək əhəmiyyətə malikdir. Mütəxəssislər tövsiyə etdilər ki, bu xəstəliklərdən əziyyət çəkən insanlar, xəstə uşaqların valideynləri yaradılmış əlverişli şəraitdən səmərəli istifadə etməklə övladlarının cəmiyyətə inteqrasiyası üçün mühüm addım atmış olarlar.*

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı***

## Kursantlar Ağbulaqda istirahət edirlər



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının istirahəti təşkil edilib.***

45 kursantın iştirak etdiyi "Yay məktəbi"nin ilk günündə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev ölkəmizdə, eləcə də muxtar respublikada uğurla həyata keçirilən dövlət gənclər siyasəti və bu sahədə görülən ardıcıl tədbirlərdən danışıb, bu tədbirin təşkil edilməsində məqsədin gənclərin yay tətili günlərində asudə vaxtlarının səmərəli keçirilməsindən ibarət olduğunu bildirib. Vurğulanıb ki, bu gün muxtar respublikada gənclərin hərtərəfli inkişafı, asudə vaxtının səmərəli təşkili, onların gələcəyin əsl vətəndaşı kimi yetişdirilməsi üçün hər cür şərait yaradılıb.

Kursantlar onlar üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Altı gün ərzində gənclər burada müxtəlif mövzularda diskussiyalarda, intellektual oyunlarda iştirak edəcək, sosial şəbəkələrdən istifadə qaydaları və bu sahədə fəallığın təmin edilməsi mövzularında keçirilən seminarlarda müzakirələr aparacaq, proqrama uyğun olaraq "Nuh yurdu" intellektual oyununda, təşkil olunacaq mini-futbol, şahmat və voleybol yarışlarında bacarıqlarını nümayiş etdirəcəklər. İstirahətin son günündə Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin musiqi kollektivlərinin kursantlar üçün konsert proqramı təşkil olunacaq. Düşərgədə həmçinin Azərbaycan bədii filmləri də nümayiş etdirilir.

Dünən kursantlar "Ağbulaq" bulağında və Batabat yaylağında olublar. Burada onlara məlumat verilib ki, Batabat Kiçik Qafqazın yamaclarında, dəniz səviyyəsindən 1700 metr yüksəklikdə yerləşən müalicə əhəmiyyətli iqlim kurort zonasıdır. Batabatın iqlimi subtropikdir, qarlı, mülayim qışı, quru, çox da isti olmayan yayı vardır, suyu mədə-bağırsaq xəstəliklərinin müalicəsi zamanı içilir. Mülayim iqlimi, şirin suyu olan göl mənzərəli görkəmi və alp çəmənliklərinə məxsus zəngin bitki aləmi insanlara xoş təsir bağışlayır.

Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanışlıq isə buradakı muzeydən başlayıb. Muzeydə qoruq ərazisindəki flora və faunaya aid eksponatlar nümayiş etdirilir. Qoruqda 2899 bitki növü yayılıb ki, bunların bir çoxu endemikdir. Geniş müxtəlifliyə malik bitki örtüyü 285 növ faunanın bu ərazilərdə yayılmasına imkan verib. Ərazidə şabalıdı və torflu torpaq tiplərinin mövcudluğu landşaft-bitki örtüyünün formalaşmasında böyük rol oynayıb.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 588